# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 21 (1682) 15 dekabr 2018 - ci il Qiymәti 50 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib



### Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 15 il keçir.

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə x anım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

## BU SAYIMIZDA


ATU-da ümummilli lider Heydər Əliyevin xatirəsi anılıb 2





ATU “Web of Science Azerbaijan-2018” mükafatına layiq görüldü 2

Otorinolarinqologiya üzrə beynəlxalq elmi-praktik konqres keçirilib 3



Macarıstan Tibb Universitetinin nümayəndələri ATU-da qonaq olublar 3



“AZƏRBAYCAN ANATOM, HİSTOLOQ VƏ EMBRİOLOQLAR ELMİ CƏMIYYƏTİ” İCTİMAİ BİRLİYİ TƏSİS OLUNDU 2




Urologiya və andrologiyanın problemlərinə həsr olunmuş təlim kursları keçirilib 4

Bakıda müəllimlərin XV qurultayı keçirilib 3

AMEA-da «Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti» kitabının təqdimatı olub 6

Əməkdar elm xadimi Abbas Axunbəylinin 80 illiyi qeyd olunub

ATU-nun əməkdaşı «Skype» vasitəsilə mühazirə söylədi 4

Gənc dissertantlarımız Respublika Elmi Konfransında çıxış ediblər

# ATU-da ümummilli lider Heydər Əliyevin xatirəsi anılıb

**Dekabrın 10-da Azərbaycan Tibb Universitetində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının 15-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib.**



Tədbirdə Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli çıxış edərək, müasir Azərbaycanın banisi, ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən söz açıb. Qeyd edib ki, bu tarixi şəxsiyyət bütün həyatını dövlətçiliyimizin, xalqımızın xoşbəxt və qayğısız həyatına, gələcəyinə həsr edib.

Rektorun sözlərinə görə, Heydər Əliyev dedikdə, ilk olaraq göz önünə Azərbaycanın müasir tarixi gəlir: "Bu müasir tariximizdə ulu öndər Heydər Əliyevin danılmaz, dərin izi var. Onun qoyduğu izlər bu gün də uğurla davam etdirilir. Azərbaycan tarixinə ulu öndərin ilk müdaxiləsi 1969-cu ildə başlayıb. Azərbaycanın elm və təhsillə bağlı strategiyasının əsasının məhz ümummilli lider tərəfindən qoyulduğunu bildirib: "Məhz bu strategiya ölkədə elm və təhsilin gələcək inkişafına nail olunmasına şərait yaratdı. O, nəinki bu iki sahənin əhəmiyyətini xüsusi vurğulayırdı, həm də onların daxili əlaqəsini, bir-birini tamamlama şərtlərini də həyata keçirirdi. Ulu öndər deyirdi ki, "elm, təhsil, mədəniyyət sahəsində əldə etdiyimiz nailiyyətlər, Azərbaycan xalqının yüksək şüur səviyyəsi ilk növbədə müəllimlərin zəhmətinin bəhrəsidir". Heydər Əliyev daim xarici mütəxəssislərin diqqətini Azərbaycana çəkməyə, onlar-



Heydər Əliyev ölkə rəhbəri vəzifəsində olduğu zaman bu geridə qalmış aqrar respublikadan sənayesi, sosial həyatı, mədəniyyəti inkişaf etmiş bir respublika yaratdı".

Rektor qeyd edib ki, ulu öndər Heydər Əliyevin Azərbaycan tarixinə ikinci dəfə müdaxiləsi 1993-cü ilə təsadüf edir. Həmin dövrdə ölkədə daha ağır şərait olub: "Ölkə müharibə şəraitində yaşayırdı. Həmçinin, dərin sosial, iqtisadi böhran içində idi. Hətta mətbuat yazırdı ki, ölkədə buğda ehtiyatları cəmi bir neçə günlük qalıb. Elektrik enerjisinin tükənməsi və s. kimi problemlər dövlətimiz üçün böyük bir təhlükə mənbəyi idi. Və indi həmin illəri analiz edərkən, birmənalı şəkildə bu fikrə gəlirik ki, məhz Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycan xalqının uğuru olub".

Rektor G.Gəraybəylinin sözlərinə görə, bu gün ətrafımızda baş verən hadisələri, geosiyasi durumu müşahidə edərkən bir daha əmin oluruq ki, məhz Heydər Əliyevin uzaqgörən daxili və xarici siyasəti nəticəsində Azərbaycan bu çətin şəraitdə müstəqilliyini, mədəniyyətini, iqtisadiyyatını qoruyub saxlaya bilib.

Uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyeva çıxışında la yerli mütəxəssislər arasında əlaqə yaratmağa çalışırdı. Bununla da səhiyyə sahəsində mövcud olan durğunluğun aradan götürülməsinə nail olunub. Ötən əsrin 70-ci illərindən etibarən beynəlxalq qurultay, simpozium, konqres və konfransların ölkəmizdə keçirilməsinə nail olan Heydər Əliyev səhiyyə işçilərinin də beynəlxalq miqyasda tanınmasına əlverişli şərait yaradıb".

İctimai fənlər kafedrasının professoru Fəxrəddin Məmmədov da milli liderin rəhbəliyi altında Azərbaycanın keçdiyi yola nəzər salıb. Bildirib ki, Azərbaycan hərtərəfli geriləmə prosesində olarkən, Heydər Əliyev ölkə iqtisadiyyatının dirçəlməsi üçün əhəmiyyətli işlər görüb. Ulu öndər Azərbaycan xalqının ən faciəli günlərində xalqın yanında olub, müstəqillik illərində Azərbaycanın inkşaf yoluna qədəm qoymasına səbəb olub.

Tədbirdə gənc nəslin nümayəndələrinə də söz verilib. ATU-nun II müalicə-profilaktika fakültəsinin III kurs tələbəsi Türkay Kərimli milli lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan gənclərinin daha çox uğurlara imza atacağını bildirib.

**ATU-nun mətbuat xidməti**

# ATU "Web of Science Azerbaijan-2018" mükafatına layiq görüldü

**Tibb Universiteti "Web of Science" bazasında elmi işlərin ölkə üzrə publikasiyasında liderlərdəndir.**



Dekabrın 5-də Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və "Clarivate Analytics" şirkəti tərəfindən təqdim olunan "Web of Science Azerbaijan-2018" mükafatlarının sahiblərinin adları açıqlanıb. Azərbaycan Tibb Universiteti də qaliblər sırasındadır.

Mükafatçıların siyahısı aparıcı elm axtarış platforması olan Web of Science bazası əsasında tərtib olunub. Analiz "Clarivate Analytics" (əvvəlki adı "Thomson Reuters") və Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu ilə əməkdaşlıq edən ekspertlər tərəfindən aparılıb. Beləliklə, Azərbaycan Tibb Universiteti "Web of Science" bazasında elmi işlərin dərc olunması aktivliyinə görə "Ən proqressiv universitet" nominasiyası üzrə ikinci yerə layiq görülüb.

Mükafatı ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə təhsil naziri Ceyhun Bayramov təqdim edib.

Bundan əlavə, ATU-nun mütəxəssisi Əlizamin Sadıqov "Web of Science" bazasında pulmonologiya üzrə ən çox elmi məqaləsi çap olunan müəllif kimi mükafata layiq görülüb. Qeyd edək ki, Professor Ə. Sadıqov Amerika Emfizema Fondunun "Kloud Lambert" adına mükafatın, Amerika Torakal Cəmiyyətinin Beynəlxalq Tədris mükafatının sahibidir. 200-dən çox elmi məqalənin, 60 jurnal məqaləsinin və 11 monoqrafiyanın müəllifidir.

Mərasimdə çıxış edən təhsil naziri Ceyhun Bayramov qeyd edib ki, son illər ali təhsilin davamlı inkişafına nail olunması, universitetlərin beynəlxalq elmi bazalara çıxışının asanlaşdırılması və alimlərin elmi məqalələrinin nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmasına dəstək



göstərilməsi istiqamətində mühüm addımlar atılır.

Mərasimdə Təhsil Nazirliyi ilə "Clarivate Analytics" şirkəti arasında 2019-2021-ci illəri əhatə edən əməkdaşlığa dair müqavilə imzalanıb. Bu müqavilə mövcud əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsini, "Web of Science®" platformasının rusdilli elmi nəşrlər bazasına və ölkə üzrə elmi fəaliyyətin əhatəli təhlilinə imkan verən InCites platformasına çıxışın təmin olunmasını nəzərdə tutur.

Tədbir "Clarivate Analytics" tərəfindən "2015-2018-ci illərdə "Web of Science" elmi bazasında "Azərbaycan ali təhsil müəssisələri: nəticə və perspektivlər" adlı təqdimatla davam edib.

Xatırladaq ki, 2015-ci ildə Təhsil Nazirliyi ilə dünyanın ən böyük elektron elmi-analitik informasiya bazası olan "Clarivate Analytics" (əvvəlki adı "Thomson Reuters") şirkəti arasında əməkdaşlıq sazişi imzalanıb. Nəticədə Azərbaycanın 40 ali təhsil müəssisəsi "Web of Science®" elmi platformasına çıxış əldə edib.

Son 5 ildə Azərbaycan alimlərinin impakt faktorlu jurnallarda çap olunmuş məqalələrinin ölkə üzrə ümumi sayı 74 faiz artıb, ali təhsil müəssisələri üzrə müvafiq göstərici 88 faiz təşkil edib. "Web of Science®" elmi bazasında 2017-ci ildə 1160 elmi tədqiqat işi qeydə alınıb ki, bu da son 25 ildə Azərbaycan üzrə publikasiya sayında rekord göstəricidir. Həmin məqalələrin təxminən 43 faizi ali təhsil müəssisələrinin payına düşüb.

"Web of Science®" bazasına daxil olan məqalələrin artım dinamikasına görə Azərbaycan son 3 ildə Cənubi Qafqaz ölkələri arasında davamlı olaraq 1-ci yerdə qərarlaşıb. 2015-ci ildə Azərbaycandan cəmi 2 jurnal "Web of Science®" bazasında indeksləşdirmişdisə, 2017-ci ildə bu göstərici 7-yə çatıb.

# "AZƏRBAYCAN ANATOM, HİSTOLOQ VƏ EMBRİOLOQLAR ELMİ CƏMİYYƏTİ" İCTİMAİ BİRLİYİ TƏSİS OLUNDU

**Bu günlərdə "Azərbaycan Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyəti" İctimai Birliyi Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydə alınıb və təsdiq edilibdir.**


Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə daxil edilmə nömrəsi N 4202
Tarix 15. 11. 2018-ci il
Vəzifəli şəxsin Soyadı, adı
İmzası

"Mətbu nəşrlərin təsis edilməsi barədə müraciətlərin qəbulu və uçotunun aparılması Qaydaları"na 2 №-li əlavə (hüquqi şəxslər üçün müəyyən edilmişdir)

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə

ƏRİZƏ

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq mətbu nəşr təsis etmək və "10" noyabr 2018 il tarixdən etibarən həmin nəşrin çapına başlamaq arzusundayam. Bununla əlaqədar qeyd edilən Qanunun 14-cü maddəsinə müvafiq olaraq aşağıdakı məlumatları bildirirəm:

1. Mətbu nəşrin adı: Nəzəri, Klinik və Eksperimental Morfologiya Jurnalı
2. Məqsədi: tibb elminə dair biliklərin paylaşılması
3. Dövriliyi: Kvartalda bir dəfə
4. Hüquqi ünvanı: Bakı Az 1078 M. Sənani küç 1 mən 38
5. Təsisçinin adı, qeydiyyat nömrəsi və tarixi, dövlət qeydiyyatını həyata keçirən orqanın adı və hüquqi ünvanı, qanuni təmsilçisinin adı, soyadı, atasının adı: Şadlinski Vaqif Bilas oğlu, № 1118-Q63-3582, Azərbaycan Res. Ədliyyə Nazirliyi „Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyəti" ictimai birliyi 24 aprel 2018
6. Təsisçi olan hüquqi şəxsin təsisçisi: Şadlinski Vaqif, Qasımov Eldar, Nəcəfov Canlarıs
7. Redaktorun (baş redaktorun) adı, soyadı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi yaşadığı ünvan: Şadlinski Vaqif Bilas oğlu AE 06085332, 08.12.2007 M. Sənani küç 1
8. Redaktorun (baş redaktorun) vətəndaşlığı və təhsili: azərbaycanlı, Ali

Ərizədə göstərilən məlumatların düzgünlüyünü təsdiq edirəm və məzmunu ilə tanış olduğumu bildirirəm.
İmza:
/ Şadlinski Vaqif Bilas (adı, soyadı, atasının adı)
(imza hüquqi şəxsin möhürü ilə təsdiq edilir)
Qoşma:
Əlaqə telefonları: 050 216 47 43
elektron ünvanı: shadli-vaqif@mail.ru

İctimai Birliyin qəbul edilmiş Nizamnaməsinə əsasən, "Azərbaycan Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyəti" İctimai Birliyi nəzdində "Nəzəri, klinik və eksperimental Morfologiya" jurnalının təsis edilməsinə icazə verilib. Jurnalın Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının elmi məcmuələri siyahısına daxil edilməsi haqqında vəsatət qaldırılıb.


AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ
(dövlət qeydiyyat orqanının adı)
QEYRİ-KOMMERSİYA HÜQUQİ ŞƏXSİNİN DÖVLƏT QEYDİYYATI HAQQINDA
ŞƏHADƏTNAMƏ
Qeydiyyat № 1118-Q63-3582
Hüquqi şəxsin adı "Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyəti" ictimai birliyi
Dövlət qeydiyyatına alındığı tarix 24 aprel 2018-ci il
Vəzifəli şəxsin adı, soyadı və imzası Ədliyyə nazirinin müavini Toğrul Musayev
M.Y.

Üzümüzə gələn 2019-cu ilin sentyabr ayında indiki insan anatomiyası və tibbi terminologiya kafedrasının yaradılmasının 100 illiyinin qeyd edilməsi və bu münasibətlə beynəlxalq elmi konfransın keçirilməsi planlaşdırılır. Konfransın tələbləri və qaydaları barədə məlumatlar internet saytında (http://www.jtcem.org/index.php/main) yerləşdirilib.

Yeni yaradılan ictimai birliyin rəyasət heyəti, onun bütün üzvləri bu birliyin təsis olunmasının təsdiqinə, eləcə də digər məsələlərin həllinə yaxından köməklik göstərərək hərtərəfli dəstək olan Azərbaycan Respublikasının səhiyyə naziri, professor Oqtay Şirəliyevə və ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə öz dərin minnətdarlıqlarını bildirir, ürəkdən gələn səmimi təşəkkürlərini yetirirlər.

**Vaqif ŞADLİNSKİ,**
*"Azərbaycan Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyəti" İctimai Birliyinin sədri, REA-nın akademiki, ə.e.x., professor*

# Otorinolarinqologiya üzrə beynəlxalq elmi-praktik konqres keçirilib

**Dekabrın 8-də Azərbaycan Tibb Universitetində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan Otorinolarinqologiya üzrə Beynəlxalq Elmi-Praktik Konqres işinə başladı. Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin büstü qarşısına əklil qoyub və dahi şəxsiyyətin əziz xatirəsini ehtiramla yad ediblər.**



Dövlət himninin səslənməsi ilə start verilən tədbirin əvvəlində iştirakçılara Şərq aləmində qurulmuş ilk demokratik respublikanın tarixi haqqında sənədli film nümayiş etdirildi.

Konqresdə açılış nitqi ilə çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli Cümhuriyyət ilində Tibb Universitetində bir çox önəmli tədbirlərin keçirildiyini xatırlatdı. Bunlar sırasında yerli və beynəlxalq mütəxəssislərin iştirakilə baş tutan konqreslər, konfranslar, seminarlar vurğuladı: "Lakin ATU-nun otorinolarinqologiya kafedrası tərəfindən ilk dəfə olaraq bu miqyasda beynəlxalq konqres təşkil olunub. Toplantıda Türkiyədən, Rusiya Federasiyasından, Almaniyadan, Tacikistandan, Özbəkistandan və Gürcüstandan dəvət olunan mütəxəssislər otorinolarinqologiya üzrə xəstəliklərin diaqnostikası və müalicəsində ən son yeniliklər barədə danışacaqlar, bu sahədə apardıqları müalicə və diaqnostik metodlar haqqında məruzə edəcəklər. Məqsəd sözügedən sahələrin gələcək inkişaf perspektivlərini iştirakçılarla birgə müzakirə etmək, Azərbaycanda bu sahələrin inkişafına daha da dəstək olmaqdan ibarətdir".

ATU-nun otorinolarinqologiya kafedrasının müdiri, professor Vəfa Pənahian kafedranın tarixi və inkişafı haqqında geniş məlumat verdi.

Konqresdə çıxış edən Səhiyyə Nazirliyinin baş otorinolarinqoloqu, professor Nazim Hüseynov konqres iştirakçılarını AXC-nin 100 illik yubileyi münasibətilə təbrik etdi.

Tədbirdə müzakirə olunacaq elmi işlərin Azərbaycan otolarinqologiyasının inkişafında öz yerini tapacağından əmin olduğunu bildirən N.Hüseynov konqres iştirakçılarına uğur arzuladı.

İstanbul Mədəniyyət Universitetinin qulaq, burun, boğaz cərrahiyyəsi kafedrasının professoru Mahmud Təyyar Kalcıoğlu dəvət üçün ATU-nun rəhbərliyinə təşəkkür etdi. Qonaq Azərbaycan və Türkiyə arasında təhsil, səhiyyə sahəsində dərin əlaqələrin mövcud olduğunu, bu konqresin həmin əlaqələrin daha da sıxlaşmasına xidmət edəcəyini bildirdi.

Rusiya Federal Otorinolarinqologiya Elmi-Klinik Mərkəzinin direktoru, professor Nikolay Arkadeviç Dayxes qarşılıqlı təcrübə mübadiləsinin bu sahənin inkişafına, yeni diaqnostika və müalicə metodlarının öyrənilməsinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Çıxışlardan sonra qonaqlara bədii hissə təqdim olundu. Rəsmi hissə Azərbaycan Tibb Universitetinin himninin səslənməsi ilə yekunlaşdı.

Konqres proqramda nəzərdə tutulmuş qaydada yerli və xarici mütəxəssislərin otorinolarinqologiyanın müxtəlif sahələri üzrə məruzələri ilə işini davam etdirdi. Panellərdə "Orta qulaq xəstəlikləri", "Daxili qulaq xəstəlikləri", "Foniatriya", "Endoskopik Otorinolarinqologiya", "Pediatrik Otorinolarinqologiya" mövzularına dair mühazirələr dinlənildi. Konqresdə, həmçinin, "Rinoplastika", "Baş və boyun cərrahiyyəsi" kimi aktual mövzular ətrafında müzakirələr təşkil olundu.

Qeyd edək ki, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən otorinolarinqologiya üzrə Beynəlxalq Elmi-Praktik Konqresi iştirakçılarına 12 Davamedici Tibbi Təhsil Balı veriləcək.

# İMTAHAN NƏZARƏTÇİLƏRİ TƏLİMATLANDIRILIB

**Dekabrın 14-də Azərbaycan Tibb Universitetində imtahan nəzarətçiləri ilə görüş keçirilib. Görüşdə çıxış edən ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev artıq imtahan öncəsi belə toplantıların keçirilməsinin bir ənənə halını aldığını bildirib.**

O, son illərdə testlərə açıq sualların salınması ilə tələbələrin əzbərçilikdən uzaqlaşaraq daha çox kitab oxumasını müsbət hal kimi qiymətləndirib. Bütün zamanlarda tədris prosesinin qiymətləndirilməsi baxımından əsas göstərici hesab olunan imtahanın qaydalara uyğun şəkildə və tam şəffaf şəraitdə keçirilməsi üçün nəzarətçilərin də üzərinə ciddi məsuliyyət düşdüyünü deyib. İmtahan cədvəllərinin tərtibi, testlərin hazırlanması və ümumilikdə prosesə nəzarətlə bağlı tövsiyələrini verən prorektor namizədlikləri kafedra müdirləri tərəfindən irəli sürülən nəzarətçilərin imtahan dönəmində fəallıq göstərəcəklərinə, işlərini dəqiq yerinə yetirəcəklərinə əminliyini vurğulayıb.

ATU-nun İmtahan Mərkəzinin direktoru, dosent Şahin Bayramov isə çıxışında əsasən



imtahan prosesində nəzarətçilərin diqqət göstərməli olduğu məqamlara toxunub. Eyni fəndən imtahan verən tələbələrin yanaşı oturmasına icazə verilməməsinin, zalda tam səssizliyə riayət olunmasının, tələbəyə yanlış informasiya ötürülməməsinin vacibliyini diqqətə çatdırıb. Prosesə subyektiv müdaxilənin mümkünsüzlüyünü deyən Ş.Bayramov imtahan üçün texniki bazanın tamamilə hazır vəziyyətdə olduğunu da qeyd edib.

Görüşdə imtahan sessiyasına nəzarətçi qismində qatılacaq şəxslərin sualları cavablandırılıb. Eyni zamanda dekanların, dekan müavinlərinin nəzarət prosesində hansı formada iştirak edəcəklərinə aydınlıq gətirilib.

# Bakıda müəllimlərin XV qurultayı keçirilib

**Qurultay Azərbaycan Respublikasının dövlət himninin oxunması ilə başlayıb.**

Tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərin və Azərbaycan müəllimlərinin XIV qurultayından ötən dövr ərzində vəfat etmiş təhsil işçilərinin əziz xatirələrini bir dəqiqəlik sükutla yad ediblər.

XV qurultayda Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev, Baş nazirin müavini Əli Əhmədov, Milli Məclis sədrinin müavini Bahar Muradova, dövlət və hökumət rəsmiləri, deputatlar, elm xadimləri və təhsil ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyevin qurultay iştirakçılarına təbrik məktubunu Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva oxuyub.

Təhsil naziri Ceyhun Bayramov iştirakçıları salamlayaraq Azərbaycan müəllimlərinin XV qurultayının işinə uğurlar arzulayıb. Və hesabat məruzəsi ilə




çıxış edib.

Qeyd edək ki, qurultayda Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, universitetin prorektorları və kafedra nümayəndələri iştirak ediblər.

# Macarıstan Tibb Universitetinin nümayəndələri ATU-da qonaq olublar

**Səfər çərçivəsində macarıstanlı mütəxəssislər ATU-nun rəhbərliyi ilə də görüşüblər. Görüşdə ATU-nun rektoru, professor Gəray Gəraybəyli indiyədək Tibb Universiteti ilə bir çox xarici ali məktəblər arasında sıx əlaqələrin qurulduğunu, bu münasibətlərin ildən-ilə möhkəmləndiyini dedi. Rektor tanınmış alim və mütəxəssislərin ATU-da mühazirələrinin təşkil olunduğunu, eyni zamanda təcrübə mübadiləsinin aparıldığını qeyd etdi.**

Rektor G.Gəraybəyi xarici ölkələrdəki tibb təhsili verən ali məktəblərlə ikili diploma dair razılaşmanın vacibliyini də vurğuladı. Rektor qeyd etdi ki, artıq bu vacib məsələnin təşkili ilə bağlı Azərbaycanın Təhsil və Səhiyyə nazirlikləri ilə danışıqlar aparılır. İkili dplomların tanınması üçün ATU-da ciddi islahatlar gedir, beynəlxalq standartlara uyğun yeni tədris sistemi və dərs proqramı hazırlanır.



Dəvət üçün təşəkkürünü bildirən İ.Zemmelveys adına Macarıstan Tibb Universitetinin beynəlxalq əlaqələr direktorluğunun müdiri, professor Marsel Pop qarşılıqlı əməkdaşlığın gücləndirməsinin tərəfdarı olduğunu qeyd etdi. Cənab Marsel Pop ikili diplomların tanınması prosedurunun təşkilinin çox mürəkkəb, amma vacib olduğunu söylədi. O da öz növbəsində məsələ ilə bağlı müvafiq instansiyalarla danışıqlar aparmağa hazır olduğunu bildirdi.

Ali məktəblərin mütəxəssisləri arasında təcrübə mübadiləsinin aparılmasını olduqca vacib məsələ kimi dəyərləndirən Marsel Pop ATU-nun Tədris Cərrahiyyə Klinikasında mühazirənin yüksək səviyyədə keçdiyini, klinika rəhbərliyi ilə məhsuldar görüşün nəticələrindən məmnun qaldığını söylədi. Qonaq ali məktəblər arasında tələbə və elmi işlərin mübadiləsinin mümkünlüyünü də vurğuladı.

Görüşdə Macarıstanın ölkəmizdəki səfiri Viktor Sederkenyi, Səfirliyin elm və təhsil, mədəniyyət üzrə ataşesi Mihay Qruber, ATU-nun rektorunun müşaviri Zülfüqar Musabəyov, ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Nadir Zeynalov, beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Nigar Ələkbərova da iştirak ediblər.

# ATU-nun professoruna beynəlxalq sertifikat verilib

"Azərbaycan Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyəti" İctimai Birliyinin sədri, insan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, Rusiya Elmlər Akademiyasının akademiki, tibb elmləri doktoru, professor Vaqif Şadlinski 28.11.2018 – 02.12.2018-ci il tarixlərində, dəvətnamə əsasında, Archiv Euromedica jurnalının redaksiya heyətinin İtaliyanın Milan şəhərində keçirilən beynəlxaq konfransının illik iclasında iştirak edib. O, beynəlxalq konfransda iştirakı zamanı bir neçə xarici ölkələrin tibbi elmi-praktik jurnallarının redaktorları ilə də işgüzar görüşlər keçirib.

Professor V.Şadlinski Archiv Euromedica jurnalının redaksiya heyətinin İtaliyanın Milan şəhərində keçirdiyi beynəlxalq konfransda çıxış edib və "Sertifikat"a layiq görülüb.



INTERNATIONAL MEDICAL CONGRESS
EUROMEDICA
2018

EUROPÄISCHE WISSENSCHAFTLICHE GESELLSCHAFT

ZERTIFIKAT

Prof. Vaqif Shadlinski

hat am 28.11.-02.12.2018 an dem Kongress "Euromedica 2018" erfolgreich teilgenommen

NR. 01 HANNOVER, DEN 02 DEZEMBER 2018

Europäische wissenschaftliche Gesellschaft
Dr. Georg Tyminski
Der Vorstand
Hannover

"Təbib"

# Urologiya və andrologiyanın problemlərinə həsr olunmuş təlim kursları keçirilib

**Dekabrın 8-də ATU-nun Tədris Cərrahiyyə Klinikasının konfrans zalında Azərbaycan Tibb Universitetinin, Türkiyə Uroloji Dərnəyinin, akademik Mirqasımov adına Azərbaycan Uroloqlar Assosiasiyasının Andrologiya və Reproduktiv Təbabət Assosiasiyasının birgə təşkilatçılığı ilə urologiya və andrologiyanın müasir aktual problemlərinə həsr olunmuş "Ustadlardan Tədris Kursu" adlı elmi-praktik konfrans düzənlənib.**

Dövlət Himnimizin səslənməsi ilə başlayan konfransı ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov açaraq bildirib ki, Azərbaycan Demokratik Respublikasının yaranmasının 100 illiyi ərəfəsində baş tutması bu beynəlxalq konfransı daha əlamətdar bir hadisəyə çevirir. O, qeyd edib ki, müasir dünyamızda tibbi texnologiyaların sürətlə inkişafı baxımından adı çəkilən tədris kursunun keçirilməsi günün tələblərinə uyğundur və həm Azərbaycanda, həm də qardaş Türkiyədə urologiyanın inkişafına böyük təkan verəcəkdir.






"Türkiyədən professor Ateş Kadıoğlunun rəhbərliyi ilə 13 tanınmış alimdən ibarət nümayəndə heyətinin və rusiyalı alimin iştirakı bu kursun önəmini bir qədər də artırır", - deyən prorektor çıxışının sonunda tədbir iştirakçılarına universitetin rektoru, professor Gəray Gəraybəylinin salamlarını çatdırıb və konfransın işinə uğurlar diləyib. Türk Uroloji Assosiasiyasının fəxri sədri, professor Ateş Kadıoğlu Azərbaycan ikinci dəfə müstəqillik qazandıqdan sonra bütün sahələrdə olduğu kimi, urologiya sahəsində də ikitərəfli əlaqələrin genişləndiyini, ortaq layihələrin həyata keçirildiyini xatırladıb. Həmçinin, təlim kurslarının əhəmiyyətindən danışan türkiyəli professor bugünkü toplantıda da urologiyanın aktual problemlərinə toxunulacağını söyləyib. Sonucda "bir millət, iki dövlət" deyimindən bəhrələnərək "tək uroloji cəmiyyət, iki ayrı uroloji təlim" tərzində Azərbaycan və Türkiyə uroloqlarının tək uroloji camiyəsi"ni yaratmaq arzusunu dilə gətirib. Eyni zamanda bu təlim kursuna dəstək olan azərbaycanlı kolleqalarına nümayəndə heyəti adından öz təşəkkürünü bildirib.

Azərbaycana ehtiyac duyulduğu zamanlarda həmişə gəldiklərini söyləyən Türk Uroloji Dərnəyinin başqanı, professor Cankon Germiyanoğlu bu dəfə də öz bilgilərini, təcrübələrini paylaşmaq üçün gəldiklərini və burada çox sıcaq münasibət gördüklərini diqqətə çatdırıb. 1918-ci və 1923-cü ildə iki cümhuriyyətin qurulduğunu, biri-birinə bənzəyən iki bayrağın yüksəldiyini, bu bayraqların heç vaxt enmədiyini və enməyəcəyini qürurla bildirən C.Germiyanoğlu bu müştərək konfransda üzərlərinə düşən görəvi də böyük sevgi ilə yapacaqlarını vurğulayıb.

Bundan sonra Azərbaycanla bağlı səmimi fikirlərinə görə türkiyəli qonaqlara, eləcə də təlim kursunun keçirilməsinə əlverişli şərait yaradan universitet rəhbərliyinə minnətdarlıq edən AMEA-nın müxbir üzvü, ATU-nun urologiya kafedrasının müdiri, professor Sudeyf İmamverdiyevin moderatorluğu ilə proqram üzrə ustad dərslərinə start verilib. Tanınmış mütəxəssislər urologiyanın aktual problemlərinə dair məruzələrlə çıxış ediblər.

# Gənc dissertantlarımız Respublika Elmi Konfransında çıxış ediblər

**Bu günlərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində doktorantların və gənc tədqiqatçıların XXII Respublika Elmi Konfransı işə başlayıb. Tədbirin məqsədi doktorantların və gənc tədqiqatçıların apardıqları elmi-tədqiqat işlərinin nəticələrinin müzakirəsini təşkil etmək, habelə onların elmi yaradıcılığını stimullaşdırmaqdan ibarətdir.**



İki gün davam edən konfrans Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunub. Konfransda ali təhsil müəssisələrinin rəhbərləri, respublikanın tanınmış alimləri, doktorantlar və gənc tədqiqatçılar iştirak ediblər.

Tədbirin açılış mərasimində ADPU-nun rektoru, professor Cəfər Cəfərov çıxış edərək konfransın gənc alimlərin elmi fəaliyyətinə təkan verəcəyini bildirib. Təhsil naziri Ceyhun Bayramov çıxışında elm, təhsil və innovasiyaların inkişafının dövlət siyasətinin əsas prioritetlərindən biri olduğunu deyib. Gənclərin elmi fəaliyyətə daha fəal cəlb olunması istiqamətində davamlı addımların atılmasının zəruri olduğunu vurğulayan C.Bayramov qeyd edib ki, hazırda ölkə üzrə elmlər doktoru proqramlarında təhsil alanların 8 faizini (45 nəfər) 30 yaşa qədər olan gənclər, 29 faizini isə (163 nəfər) 40 yaşa qədər olanlar təşkil edir.

Sonra gənc doktorantlar müxtəlif mövzularda çıxış ediblər. Konfransda Azərbaycan Tibb Universitetindən 25 nəfər gənc dissertant və tədqiqatçı alim iştirak edib. Onlar 15 bölmə üzrə məqalələrini təqdim ediblər.

Ümumilikdə konfransa ali təhsil müəssisələrindən və Azərbaycan Milli Elmlər Akademiyasından 500 tezis təqdim olunub.

Konfrans plenar iclasla işini yekunlaşdırıb. ATU-nun psixiatriya kafedrasının dissertantı Orxan Fərəcli plenar iclasda "Hemodializ qəbul edən pasiyentlərdə qanda kreatin səviyyəsinin depressiya ilə əlaqəsi" mövzusunda çıxış edib. İclasda konfransın bölmələrinin işi və təklifləri müzakirə edilib, konfransın qətnaməsi qəbul olunub.

Mərasimdə ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş riyaziyyat, fizika, kimya, biologiya və informatika üzrə olimpiadaların qaliblərinə diplomlar təqdim edilib.

# ATU-nun əməkdaşı «Skype» vasitəsilə mühazirə söylədi

**Dekabrın 7-də Azərbaycan Tibb Universitetinin əməkdaşı ilk dəfə olaraq onlayn video-mühazirə söyləyib. ATU-nun daxili xəstəliklər kafedrasının nümayəndəsi, kardioloq Fərid Əliyev Ukraynanın Xarkov Dövlət Tibb Universitetinin tələbələri ilə Skype vasitəsilə görüşüb.**



Mühazirədən öncə ATU-nun rəhbər nümayəndələri və Xarkov Dövlət Tibb Universitetinin təmsilçiləri Skype-la görüş keçiriblər. ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Nadir Zeynalov bu mühazirənin ATU üçün ilk təcrübə olduğunu qeyd edib: "Bu, qarşılıqlı təcrübə mübadiləsi üçün yaxşı start oldu. Onlayn mühazirələr bilik mübadiləsi üçün olduqca əlverişli, rahat və müasir üsuldur. Sevindirici haldır ki, Azərbaycan Tibb Universiteti və Xarkov Dövlət Tibb Universiteti arasında əlaqələr dinamik inkişaf edir. Qarşıdakı müddətdə tələbələrin yay praktikası və digər təşəbbüsləri də reallaşdıra bilərik".

Onlayn görüşdə iştirak edən ATU-nun daxili xəstəliklər kafedrasının müdiri, professor Əlihüseyn Hidayətov təşəbbüsün əhəmiyyətli olduğunu və gələcəkdə ali məktəblər arasında qarşılıqlı elmi işlərin aparılmasının mümkünlüyünü vurğuladı.

ATU-nun daxili xəstəliklər kafedrasının tədris hissə müdiri Fikrət Zeynalov Xarkov Universitetinin nümayəndələri ilə görüşdən məmnun olduğunu, qarşılıqlı layihələrin bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Öz növbəsində Xarkov Dövlət Universitetinin elmi pedaqoji işlər üzrə prorektoru İvan Letik belə gözəl təşəbbüs üçün ATU-nun rəhbərliyinə təşəkkürünü bildirdi. O, Xarkov Dövlət Universitetinin strukturu, tədris sistemi və təhsil proqramı haqqında ətraflı məlumat verdi. Prorektor İvan Letik azərbaycanlı həmkarlarla əlaqələrin sıxlaşdırılması, müxtəlif sahələrdə müştərək layihələr icra olunması arzusunun olduğunu dedi.

Sonra ATU-nun daxili xəstəliklər kafedrasının əməkdaşı, kardioloq Fərid Əliyev xarkovlu tələbələr üçün "Mədəcik taxikardiya fırtınalarına yanaşma" mövzusunda onlayn mühazirə söylədi. Mühazirədən sonra F.Əliyev ukraynalı tələbələrin suallarını cavablandırdı.

Qeyd edək ki, Azərbaycan Tibb Universiteti və Xarkov Dövlət Tibb Universiteti arasında əməkdaşlıq müqaviləsi var. Skype vasitəsilə mühazirə Xarkov Dövlət Tibb Universitetinin arzusu ilə təşkil olunub. Görüşdə ATU-nun beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Nigar Ələkbərova da iştirak edib.

# Çikaqo Universitetinin professoru ATU-da qonaq olub

**Çikaqo Universitetinin professoru, Amerika İmmunoloqlar Assosiasiyasının üzvü, Amerika Mikrobiologiya Cəmiyyətinin üzvü, doktor Nadim Fazal Azərbaycan Tibb Universitetinin tibbi biologiya və genetika kafedrasının qonağı olub.**



Amerika Fiziologiya Cəmiyyətinin, Amerika İnsan Genetikası Cəmiyyəti və Amerika Əczaçılıq Kollecləri Assosiasiyasının üzvü olan doktor N.Fazal kafedranın nəzdindəki muzeyin fəaliyyəti ilə tanış olub.

Dr.Fazal kafedranın baş müəllimi Leyla Süleymanovanın stomatologiya fakültəsinin 418i-3-a qrupunda keçirilən praktiki məşğələsində də iştirak edib. İnteraktiv formada keçən dərsin sonunda amerikalı mütəxəssis tələbələri maraqlandıran sualları cavablandırıb.

**ATU-nun mətbuat xidməti**

# Tədris Cərrahiyyə Klinikasında şöbələr üzrə hesabatların təqdimatı davam edir

**Tədris Cərrahiyyə Klinikasında şöbələr üzrə hesabatların təqdimatı davam edir. Noyabrın 30-da 4 şöbənin 10 aylıq hesabat iclasını açan klinikanın direktoru, professor Surxay Hadıyev ilin sonunadək bütün şöbələrin hesabat verəcəklərini və yekun olaraq klinikanın ümumi hesabatının hazırlanacağını vurğulayıb.**

Professor Mübariz Əliyev ümumi cərrahiyə şöbəsinin tibbi personalı haqqında qısa məlumat verdikdən sonra bu ilin 10 aylıq hesabatını təqdim edib. Şöbədə xəstə sayının 914 olduğunu, böyük həcmli əməliyyatların sayının artdığını, əməliyyatlar zamanı cəmi 1 ölüm hadisəsinin və 7 ağırlaşma halının qeydə alındığını deyib. Yeri gəlmişkən, cərrahi ağırlaşmanın Azərbaycanda həkim səhvi kimi qiymətləndirilməsinin doğru olmadığını da diqqətə çatdıraraq bu zaman effektli tədbirlər görülməsinin vacibliyini vurğulayıb. O, kadrların aktivliyinə də toxunaraq kafedra müdiri, professor Elçin Ağayevin bu ilin 10 ayı ərzində 291 əməliyyat icra etdiyini, laparoskopik əməliyyatların sayında da artım olduğunu söyləyib.

Şöbə müdiri hesabat dövründə Almaniyaya dəvət edilməsi və orada apardığı iki uğurlu əməliyyatın nəticələri haqqında da məlumat verib.

II cərrahi xəstəliklər şöbəsinin müdiri, professor Xaləddin Musayev şöbədə 8 cərrah, 2 professor, 4 assistent, 1 baş laborant, 1 mütəxəssis-həkim və 7 rezidentin çalışdığını, hesabat dövründə 49 xəstəyə ambulator xidmət göstərildiyini, 429 əməliyyatın icra olunduğunu bildirib.

Şöbə müdiri hesabat dövrü ərzində "II Azərbaycan Türkiyə Kolerektal Cərrahiyyə günləri" simpoziumunun təşkil olunduğunu, hər ayda iki dəfə rezidentlərin seminarlarının keçirildiyini, şöbə əməkdaşlarının Asan radio xidməti, Lider TV, İTV və digər teleradio şirkətlərində çıxış etdiklərini də diqqətə çatdırıb.

Transplantologiya şöbəsinin hesabatını təqdim edən şöbə müdiri Anar Namazov şöbədə daha çox laparoskopik əməliyyatlara üstünlük verildiyini bildirib. Qeyd edib ki, hətta bir neçə dəfə təkrar əməliyyat olan xəstələrdə laparaskopik əməliyyatlar icra edirik. O, 10-12 xəstə üzərində uğurlu əməliyyatlar aparıldığını deyərək 10 ay ərzində şöbənin təşkilatçılığı ilə yerli və beynəlxalq konfransların, rezidentlər üçün "Təməl cərrahi bacarıqlar kursu"nun keçirildiyini söyləyib.

III cərrahiyyə şöbəsinin müdiri, assistent Aydın Əliyevin sözlərinə görə, bu ilin yanvar-noyabr ayları ərzində şöbəyə 385 xəstə daxil olub, bunlardan 383 nəfərinin sağalması, 1 nəfərin ağırlaşması, 1 nəfərin ölümü qeydə alınıb. Çarpayı günləri 1014 gün olub, 330 xəstəyə müxtəlif cərrahi müdaxilələr edilib, 54 xəstə isə konservativ müalicə alıb.

İclasda klinikanın tədris işləri üzrə direktor müavini, professor Davud Pənahov da çıxış edib. O, bütün dünyada olduğu kimi ATU-da da müasir informasiya komminikasiya texnologiyalarından istifadə olunduğunu deyərək bildirib ki, artıq I kurslarda elektron jurnala keçidlə əlaqədar tələbələrin davamiyyəti haqqında məlumatın həmin gün axşam saat 12-dək internet





vasitəsilə Virtual Test Mərkəzindəki elektron ünvana köçürülməsi tələb olunur.

Bu sistemin fəaliyyət mexanizmi və ümumilikdə tədrisin təşkili barədə ətraflı məlumat verən direktor müavini klinika daxili nəzarət nəticəsində aşkarlanan çatışmazlıqların aradan qaldırılması yollarından danışıb.

* * *

Dekabrın 14-də daha 6 şöbənin hesabatı dinlənilib.

Oftalmologiya şöbəsinin illik hesabatını şöbə müdiri, assistent Qurban İsmayılov diqqətə çatdırıb. O, şöbədə 1 professor, 4 dosent, assistentlər\və baş laborantların, 4 stasionar həkimin fəaliyyət göstərdiyini, 11 ay ərzində poliklinika şöbəsində 6691 xəstənin qeydə alındığını, 1585 nəfərin əməliyyat olunduğunu bildirib. 2018-ci ildə şöbəyə Ekzeymer Lazer və İOL Master aparatlarının gətirildiyini deyən Q.İsmayılov 2019-cu ildə Vitrektomiya əməliyyatlarına başlamaq arzusunda olduqlarını söyləyib.

Travmatologiya-ortopediya şöbəsinin hesabatını assistent Cəfər Nəsirli təqdim edib. Burada fəaliyyət göstərən professor-müəllim heyəti və rezidentlər haqqında qısa məlumat verən şöbə müdiri bundan sonra statistik rəqəmləri diqqətə çatdırıb. Şöbədə ümumu xəstə sayının 524, əməliyyat sayının 472, o cümlədən böyük əməliyyat sayının 362, çarpayı günləri sayının isə 1655 olduğunu, 1 ölüm faktının qeydə alındığını bildirib.



Neyrocərrahiyə şöbəsinin müdiri, assistent Fərid Qaralovun sözlərinə görə, 1 professor, 2 dosent, 7 assistent və 5 rezidentin çalışdığı şöbədə hesabat dövründə ümumi xəstə sayı 662, əməliyyat sayı 571, çarpayı günlərinin sayı isə 2390 olub.

Fizioterapiya və reabilitasiya şöbəsinin müdiri Nurlana Əliyeva hesabat dövründə şöbədə 489 xəstəyə ambulator xidmət göstərildiyini, ümumilikdə 5115 prosedurun həyata keçirildiyini deyib. Klinika daxili şöbələr üzrə ümumi fizioterapiya aparılmış xəstə sayının 270 olduğunu söyləyən şöbə müdiri 2 xəstə üzərində aparılan prosedurun video-görüntülərini də nümayiş etdirib.

Urologiya şöbəsində biri nefroloq və on dördü həkim-uroloq olmaqla 15 həkimin, 4 rezidentin çalışdığını deyən şöbə müdiri Fikrət Əhmədov bildirib ki, hesabat dövründə xəstə sayı ümumilikdə 481 nəfər olub. Şöbədə cəmi 380 əməliyyat icra edilib ki, bunlardan da 46-sı böyük, 107-si orta, 227-si isə kiçik həcmli əməliyyatlardır. Bundan əlavə, 1873 xəstəyə hemodializ xidməti göstərilib.

Uşaq cərrahiyyəsi şöbəsinin hesabatını təqdim edən Murad Əlibəyov şöbədə çarpayı məşğulluğunun 56 gün, çarpayı dövriyyəsinin 53 gün, orta çarpayı gününün 1,1 gün, cərrahiyyə aktivliyinin 94,2 faiz olduğunu deyib. Onun sözlərinə görə, 1204 əməliyyatın 113-ü böyük həcmli əməliyyatlar olub. Laparoskopik əməliyyatlar isə ümumi əməliyyatların 8,14 faizini təşkil edib. Şöbədə icra olunan və hesabatda əksini tapan əməliyyatlarla bağlı sualları klinikanın baş həkimi, şöbənin professoru Ramiz Poluxov cavablandırıb.

Hesabat iclasının gedişində professor Nuru Bayramovun rəhbərliyi ilə klinikada böyrək trasplantasiyasının aparılması barədə də məlumat verilib və bu unikal əməliyyat böyük uğur kimi dəyərləndirilib.

Təqdimatlarda iştirak edən bütün əməkdaşlara, xüsusilə də kafedra müdirlərinə təşəkkürünü bildirən S.Hadıyev digər tədbirlərdə, konfranslarda klinikanın imkanlarından kifayət qədər yararlanan bəzi kafedra müdirlərinin hətta öz şöbələrinin hesabatına qatılmamasından, eləcə də klinikada çalışan tanınmış alimlərin və mütəxəssislərin potensialından yetərincə istifadə edilməməsindən təəssüfləndiyini dilə gətirib.

Gələcək hesabatlarda böyük əməliyyatların icrası, cərrahların fəallıq əmsalları, həmçinin sonuncu kurs rezidentlərinin əməliyyatlarda fəal iştirakının öz əksini tapacağına əminliyini ifadə edib.

# Macar aliminin xatirə yubileyinə həsr olunmuş mühazirə keçirilib

**Dekabrın 5-də ATU-nun Tədris Cərrahiyə Klinikasında görkəmli macar alimi, cərrahı İqnaz Zemmelveysin xatirəsinə həsr olunmuş mühazirə keçirilib. Tədbiri giriş sözü ilə açan universitetin beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Nadir Zeynalov professor-müəllim heyətini, tələbələri və rezidentləri salamlayaraq bildirib ki, İ.Zemmelveysin anadan olmasının 200 illiyi münasibətilə 2018-ci il Macarıstanda Zemmelveys ili elan edilib. Ona görə də Macarıstanda və digər ölkələrdə, o cümlədən Azərbaycanda bu yubileylə bağlı müxtəlif silsilə tədbirlər həyata keçirilir.**

Ümumi cərrahiyyə kursunda cərrahiyyənin tarixinə dair dərslərdə İ.Zemmelveys barədə müəyyən qədər məlumatların verildiyini deyən prorektor bu gün onun kimliyi, həyat və yaradıcılığı, təbabətə, cərrahlığa töhfəsi barədə daha ətraflı söhbət açılacağını vurğulayıb. O, Macarıstanın ölkəmizdəki səfiri Viktor Sederkenyinin, səfirliyin elm və təhsil, mədəniyyət üzrə ataşesi Mihay Qruberin və Macarıstanın aparıcı tibb universiteti olan İ.Zemmelveys adına Tibb Universitetinin beynəlxalq əlaqələr direktorluğunun müdiri, professor Marsel Popun bugünkü tədbirə qatılmasından məmnunluğunu dilə gətirib və iştirakçıları çox maraqlı mühazirələrin gözlədiyini söyləyib.

Bundan sonra ümumi cərrahlıq kafedrasının müdiri, professor Elçin Ağayevin "XIX əsr cərrahlığında infeksion kontrolun vəziyyəti" haqda mühazirəsi dinlənilib.

Ağrı, qanaxma və cərrahi infeksiyanı cərrahlığın inkişafına mane olan 3 mühüm amil kimi səciyyələndirən professor aseptika və antiseptikanın etimologiyasına və tarixinə də toxunub.

Listerə qədərki dövrdə cərrahlığın mövcud durumundan da bəhs edən E.Ağayev fransız cərrahı Puto (XVIII əsr), "hərbi cərrahlığın atası" adlandırılan Jhon Prinql (1707-1782), antiseptikanın baniləri İqnaz Zemmelveys (1818-1865), Lui Paster (1822-1885), Jozef Listerin (1827-1912), eləcə də aseptikanın təcəssümləri sayılan E.Bergman və onun tələbəsi Şimmelbuşun, R.Kox və E.Esmarxın, L.Heydenreyxin fikirlərindən sitatlar gətirərək onların bu sahədəki tarixi xidmətlərini xatırladıb. Eyni zamanda müasir antiseptikanın və aseptikanın yüksək səviyədə inkişafından, yeni yaradılan texniki avadanlıqların böyük imkanlarından söhbət açıb.

Çıxışının sonunda Məhəmməd Peygəmbərin "Hər kəsin dəyəri onun elmi qədərdir" müdrik kəlamını, bir tələbənin onun özünə ünvanladığı "Gələcək gənclərin, gənclər isə müəllimlərin əsəridir" qeydini yada salan professor dünyanı sevginin xilas edəcəyinə inandığını və mühazirəsini də bütün dinləyənlərə sevərək oxuduğunu deyib.

İkinci mühazirəni isə İ.Zemmelveys adına Macarıstan Tibb Universitetinin beynəlxalq əlaqələr direktorluğunun müdiri, professor Marsel Pop təqdim edib. Burada olmaqdan şərəf duyduğunu söyləyən hörmətli qonaq Macarıstan səfirliyinin dəstəyi ilə Azərbaycan Tibb Universitetində İ.Zemmelveysin xatirə yubileyininin qeyd edilməsini xüsusi diqqət kimi dəyərləndirib və dəvət üçün həm universitetin rektoru, professor Gəray Gəraybəyliyə, həm də cənab səfir Viktor Sederkenyiyə öz təşəkkürünü bildirib.

İ.Zemmelveys haqqında az danışmaqla ona daha çox danışmaq imkanı yaradan professor Elçin Ağayevə minnətdarlıq etməyi də unutmayan macarıstanlı alim bu təzadlı şəxsiyyətlə bağlı önəmli fikirlər səsləndirib: "İ.Zemmelveys olmasaydı, biz cərrahiyyəyə doğru istiqamətdə yanaşa bilməzdik. Düşünürəm ki, universitetimiz 50 il bundan qabaq adını dəyişdirərək Zemmelveys Universiteti adlandırılanda çox doğru addım atmışdı. Adı dəyişdiriləndə 200 illiyi qeyd edilən universitetimizin gələn il 250 yaşı qeyd olunacaq. Qısaca deyə bilərik ki, İ.Zemmelveys mamalıq-ginekologiya ilə məşğul idi, universitet professoru idi. Bildiyiniz kimi, Budapeşt şəhəri iki hissədən – Buda və Peşt şəhərlərindən ibarətdir. O, 1818-ci ildə Buda şəhərində anadan olmuş və 47 yaşında Vyana şəhərində vəfat etmişdir. Nəyə görə belə cavan vəfat etməsi hələ də qaranlıq qalır. Ona görə də mən daha çox onun elmi fəaliyyəti haqqında danışmaq istəyirəm. İ.Zemmelveysin doğulduğu ev indi muzeydir. Nə vaxt fürsət olsa, Macarıstana, Budapeştə gəlmiş olsanız, mütləq o muzeyə gedib baxın".

1837-ci ildə tibb tələbəsi kimi fəaliyyətə başlayan İ.Zemmelveysin 1847-ci ildə Vyana xəstəxanasının I mamalıq şöbəsində çalışdığını söyləyən M.Pop həmin xəstəxanada iki şöbənin olduğunu deyib: "Şöbələrin birinə həkimlər və tibb tələbələri, digərinə isə kollecdə təhsil alaraq mamaçalığı öyrənən tələbələr və mamaçalar gəlirdilər. O zaman qızdırma adlanan sepsislə bağlı ölüm faizi iki şöbə arasında çox fərqlənirdi. Tələbələr və həkimlərin gəldiyi şöbədə ölüm faizi yüksək, digər şöbədə isə ondan xeyli az idi. Sonra İ.Zemmelveys inqilab səbəbindən, həm də işlədiyi yerdə vaxtı bitdiyindən Macarıstana qayıtmağa məcbur oldu. 1855-ci ildən Beşt Universitetinin professoru vəzifəsinə təyin edilmişdi. Bu həmin yer idi ki, sonralar "əlləri yumaq" prinsipini tətbiq etmişdi".






İ.Zemmelveysin vəfat etmiş dostunun ölümü ilə doğuş qızdırması arasında əlaqə axtardığını da vurğulayan professor bildirib ki, o, əlləri xlorlu, əhəngli su ilə yumağı hamıdan tələb etdiyi vaxtda ölüm faizi azalmışdır. Bu, onun infeksiya nəzarətində ilk addımı idi.

"Təəssüflər olsun ki, İ.Zemmelveys kifayət qədər nəzakətli insan deyildi, insanlarla ünsiyyət qura bilmirdi, çox kobud adam idi. Bu səbəbdən də onun kəşfi başqaları tərəfindən qəbul edilmirdi" – deyən alim xatırladıb ki, o öz kəşfi haqqında ancaq 10 ildən sonra məqalə çap etdirmişdi. Bu kəşfin alman dilində də dərc olunmasına baxmayaraq, elmi cəmiyyətlər, alimlər və həkimlər tərəfindən rədd edilmişdir. O, kolleqalarına açıq məktubunda yazmışdı ki, doğuş otağına girən və əlini yumayan hər hansı bir şəxs, sadəcə, cinəyətkardır.

Mühazirə deyən professor İ.Zemmelveysin zamanında qəbul edilməməsinə məşhur alman dramaturqu Artur Şopenhauerin fikrirləri ilə aydınlıq gətirib: "Hər hansı bir problem qəbul edilənə qədər 3 mərhələdən keçir. Əvvəl onu gülünc kimi qarşılayırlar, sonra onunla mübarizə aparırlar və axırda onu hamıya açıq-aşkar məlum olan bir fakt kimi qəbul edirlər".

Mühazirənin gedişində İ.Zemmelveysin özünün, valideynlərinin, ev muzeyinin, adını daşıdığı universitetin keçmişdəki və indiki foto-şəkilləri də nümayiş etdirilib, onun həyat və fəaliyyətini özündə əks etdirən kitablar, filmlər barəsində məlumat verilib.

"O, həkim idi, anaların xilaskarı idi, dahi idi, fanatik idi, ruhi xəstə idi, yalançı idi və nəhayət infeksiya nəzarətinin banilərindən biri idi" , – deyə həyat və fəaliyyətini işıqlandırdığı alim-cərrahın şəxsiyyətini çox lakonik şəkildə canlandıran M.Pop sonda Macarıstan Milli Bankının sifarişi əsasında İ.Zimmelveysin yubileyi münasibətilə gümüşdən hazırlanan xüsusi hədiyyəni ATU-nun professoruna və Macarıstanın ölkəmizdəki səfirinə təqdim edib.

Hər iki mühazirə tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

**Arif MƏMMƏDLİ**

# Əməkdar elm xadimi Abbas Axunbəylinin 80 illiyi qeyd olunub

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında görkəmli alim, professor Abbas Axunbəylinin 80 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.**



Tədbir Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti, Azərbaycan Reanimatoloqlar və Anestezioloqlar Cəmiyyətinin (AzRAC) birgə təşkilatçılığı ilə baş tutub.

ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev Azərbaycanın inkişafında əməyi olan insanların yubileylərinin keçirilməsi ənənəsinin təməlinin ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu bildirib və bu ənənəyə ATU-nun rəhbərliyi tərəfindən də ardıcıl əməl olunduğunu qeyd edib.



S.Əliyev ATU-nun həyatında və inkişafında böyük əməyi olan Abbas Axunbəylinin Tovuz rayonunda anadan olduğunu, 1954-cü ildə Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olduğunu bildirib.

Professor Sabir Əliyevin sözlərinə görə, A.Axunbəyli təhsilini bitirdikdən sonra Elmi Şuranın qərarı ilə aspiranturada saxlanılıb. Qısa müddətdə həm elmlər namizədi, həm də elmlər doktoru olub. 33 yaşında ikən artıq elmi xadim kimi özünü təsdiqləyə bilib. Uzun müddət ATU-nun anesteziologiya və reanimatologiya kafedrasının müdiri vəzifəsini uğurla icra edib.

Sonra ATU-nun anesteziologiya və reanimatalogiya kafedrasının müdiri, AzRAC-nin sədri, professor İsfəndiyar İsmayılov çıxış edərək onun həyat və fəaliyyətinə işıq salıb: "Bu gün görkəmli alim, Azərbaycanda anesteziologiya və reanimatologiya elminin inkişafında böyük xidmətləri olan tanınmış həkim, gözəl pedaqoq Abbas Axunbəyli sözün əsl mənasında alimə xas olan bütün xislətləri özündə cəmləşdirmişdi. Bunun səbəbinin isə öz kökü vardır. Belə ki, o, gözəl pedaqoq Əhməd müəllimin ailəsində dünyaya göz açmışdır. Hansı ki, o ailə Azərbaycan xalqının nümayəndəsi olmaqla yanaşı, bu xalqa 3 elmlər doktoru, professor, 1 elmlər namizədi, dosent bəxş etmişdi. Bu ailədə elmə, təhsilə böyük hörmət var idi. O, Azərbaycanın çox tanınmış və yaradıcı alimləindən biri idi. İnstitut rəhbərliyinin diqqətini özünə cəlb edə bilmişdi. Təsadüfi deyil ki, ali məktəbi bitirərkən 2 nəfər gənc məzuna aspiranturaya birbaşa daxil olmaq hüququ verilmişdi, onlardan biri də Abbas müəllim idi. Amma həyat elə gətirmişdi ki, o, birbaşa aspiranturaya daxil olmamışdı, praktik həkim kimi fəaliyyətə başlamışdı. Təxminən iki il sonra anesteziologiya və revmatologiya üzrə aspiranturaya daxil olmuşdu. Özünün elmi araşdırmalarını Moskvada aparmışdı."

III daxili xəstəliklər kafedrasının dosenti Nağdəli Zamanov A.Axunbəylinin bədii yaradıcılığından söhbət açıb. Onun zəngin yaradıcılığından nümunələr gətirməklə A.Axunbəyli poetikasının nə dərəcədə təsir gücünə malik olması barədə iştirakçılarda təəssürat yarada bilib.

Həkim-şairin vətənpərvərlik, təbiət, məhhəbbət və digər mövzulara dair yazdığı bir neçə şeirini söyləyərək, A.Axunbəylinin poetik dünyasına hərtərəfli səyahət etməyə çalışıb.

N.Zamanov respublikamız müstəqillik qazandıqdan sonra Dövlət Himnimizə aid keçirilən şeir müsabiqəsində Abbas müəllimin şeirinin mükafat qazandığını və dostların təkidi ilə bundan sonra sandıq ədəbiyyatının işıq üzü gördüyünü bildirib.

Natiq yubilyarın 90-cı illərdə və daha sonra ardıcıl olaraq bir neçə kitabının işıq üzü gördüyünü diqqətə çatdırıb. Onlardan "Hərənin bir dünyası var", "Qurdun sürüsü olmaz", "Nakam məhəbbətin imtahanı", "Yazıya pozu yoxdur", "Kəlamlar", "Tələsirəm sabaha", "Mənim dünyam" kitablarının adını çəkib. Bu əsərlərin toxunduğu məsələlərdə müasir gəncliyin estetik dünyagörüşünün formalaşmasında müstəsna rol oynayacağını qeyd edib.

Əksər şairlər kimi Abbas müəllimin də ülvi məhəbbət şeirləri yazdığını xatırladan N.Zamanov həmin şeirlərdən sitatlar gətirib:

*Bəzən can verəndir, bəzən öldürən,*
*Bəzən də imandır, yoldur məhəbbət.*
*Bəzən sərin sudur, bəzən söndürən,*
*Bəzən də alovdur, oddur məhəbbət.*

Həkim-şairin yazdığı əsərləri ilə hər an oxucularını düşündürdüyünü vurğulayan natiq, onun hər bir obyektə və predmetə özünəməxsus üslubla yanaşdığını bildirib.

Sonra yubilyarın dostları və tələbələri onunla bağlı maraqlı xatirələrini bölüşüblər.

Professor Nəsib Quliyev yubilyarın ilk aspirantı olmasından, onun necə qayğıkeş, tələbələrinə necə həssaslıqla yanaşmasından söhbət açıb. Hətta tələbələrinin elmi nailiyyətlər əldə etməsi üçün şəxsi vəsaitini belə çəkinmədən sərf etdiyini dilə gətirib və gələcək nəsillər üçün örnək olacaq çoxsaylı hərəkətlərini kövrəkliklə yad edib. Tələbəsinin öz yerinə - kafedra müdiri vəzifəsinə irəli çəkilməsi təklifinə toxunan N.Quliyev bunu yubilyarın son dərəcə humanist bir insan olması ilə əlaqələndirib.

Dosent Nəsimi Qasımov və digər çıxışçılar da yubilyarla bağlı kövrək xatirələrini bölüşüb, onun haqqında yüksək fikirlər səsləndiriblər.

Yubilyarın ömür-gün yoldaşı Elmira Axunbəyli də kövrək hisslərlə çıxış edib.

"Mən tədbirdə iştirak edənlərin baxışlarından hiss edirəm ki, bura necə sevə-sevə gəliblər. Mənim Abbasıma dəyər verdiyiniz üçün, tədbiri keçirdiyiniz üçün hər birinizə minnətdaram. Bilirsiniz ki, alim olmaq, müəllim olmaq olar, amma əsl insan olmaq çətindir. Abbas müəllim gözəl alim olmaqla yanaşı, həm də gözəl ömür-gün yoldaşı və əsl insan idi. O, tələbələrini də ailə üzvləri kimi sevirdi" – deyən E.Axunbəyli yubileyi təşkil etdiyi üçün Səhiyyə nazirinə, universitetin rəhbərliyinə və tədbirdə iştirak edənlərin hər birinə təşəkkürünü bildirib.

Sonra konfrans öz işinə plenar iclaslarla davam edib.

İclaslarda reanimatoloqlar və anestezioloqların mühazirələri dinlənilib. Yekunda yubilyarın 80 illik yubileyinə həsr olunmuş elmi konfrans materiallarının kitab şəklində dərc olunmuş toplusu və sertifikatlar iştirakçılara təqdim olunub.

**Qabil ABDULLAYEV**

**Fotolar Cənnətalı Çingizindir**

*Mikayıl Müşfiq -110*

# Gəlmiş hüzuruna bir qara dağlı...



**Mikayıl Müşfiq, Hüseyn Cavid, Əhməd Cavad və o dövrdə yaşamış başqa sənətkarlar öz əsərlərində xalqımızın milli azadlıq fikirlərini əks etdirmişlər. Onlar öz əsərləri, elmi fəaliyyətləri ilə Azərbaycan xalqının elm və mədəniyyətinin yüksəlməsinə çalışmış və beləliklə də xalqı gələcəyə, milli azadlığa, müstəqilliyə doğru aparmışlar.**

**Heydər Əliyev,**
**Ümummilli lider**

Həyat insana bir dəfə verilir. Günləri aylara qovuşdurur, illəri yola salırıq. Beləcə yaşa doluruq. İnsan nə vaxtsa dönüb yaşadığı ömrə nəzər salır, düşünür və soruşur: "Məndən sonra nə qalır?" Bax, bu sualın cavabından çox şey asılıdır. İlləri yana-yana yaşamışıqsa, deməli nə isə qalır, yaşamağa dəyər. Dahi şairimiz Mikayıl Müşfiqin isə geri dönüb baxmağa imkanı olmadı... Onun əvəzinə arxaya bütün xalq dönüb baxdı. Baxdı və qiymətini verdi. Müşfiq illəri yana-yana yaşayanlardandır. Müşfiq qisa ömrünü əsrlərə bərabər yaşadı.

Mikayıl Müşfiq həyatının mənasını ömrünün bir anını belə boş keçirmədən xalqa, onun inkişafına xidmət etməkdə görürdü. Lakin qəlbini, beynini, bütün varlığını hüceyrə-hüceyrə, gilə-gilə əridib onu təzə əsərlər yazmağa, xalqa, cəmiyyətə göz dolusu, kamınca xidmət etməyə qoymadılar. Şairin zərif rübabını qaba əllər sərt daşlara çırpıb sındırdı, onun gözəl şeirlər deyən şirin dili əbədi susduruldu… Müşfiq nurunun işığından gözləri qamaşanlar öz alayarımçıq bacarıqlarından qorxdular. Qorxdular ki, Müşfiq sağ olsa, onlar Müşfiqin yanında çox solğun, üzgün, cılız, aciz görünəcəklər. Elə ona görə də şeirləri ilə könülləri ovsunlayan, ürəkləri riqqətə gətirən şairi susdurdular. Onlar təkcə Müşfiqin özünə yox, həyat işığı görməmiş neçə-neçə şeirlərinin də qətlinə fərman verdilər. Onlar ədəbiyyatımızı Müşfiqin kitab rəflərini bəzəyəcək doğulmamış əsərlərinə həsrət qoydular. Onlar ən nəhayət, mənəviyyatımıza zərbə vurdular.

Mikayıl Müşfiqin şeirlərindən bəhrələnənlər sevginin ucalığını, həyatın şirin olduğu qədər də acı olduğunu dərk edirlər. Cismən onu məhv etdilər, həyatının çiçəkləndiyi vaxtda onu sevməyə, sevilməyə həsrət qoydular. Onu gülüzlü yarından ayırdılar, ona "vətən xaini", "xalq düşməni" damğası vurdular. Onun şair ruhunun qarşısında tələ qurdular, bir səd kimi durdular. Fəqət mənən onu həyatdan apara bilmədilər.

Ədəbiyyat mahiyyətcə əbədiliyi ifadə edir. Ümumən sənət görünənin arxasındakı görünməzlikdən soraq verir.

Müşfiq öz şeirlərində arzularını dilə gətirirdi. Elə bu da sonralar Müşfiqi aradan götürmək üçün "qırmızı imperiyanın" əlinə bəhanə vermişdi. Müşfiqi "məşhər ayağına" çəkənlər ondan bu şeirlərin əvəzini çıxırdılar, hesab sorurdular. Onun yazdığı şeirlər isə yaz səhərində parlayan və heç vaxt sönməyəcək parlaq ulduz idi.

Müşfiq həm də dininə sadiq bir müsəlman idi. O yazır: "Mən bir Hüseyn aşiqi kimi həmişə fəxr etmişəm ki, Azərbaycan Hüseynçilər diyarıdır. Hər bir azərbaycanlı Hüseyn aşiqi olmalıdır. Hüseyn səma kimi əbədidir. Bir gün sağ əlim bunları inkar edəcək nəsə yazarsa, onu sol əlim ilə baltalayaram".

*Gəlmiş hüzuruna bir qara dağlı,*
*Bir qara qulundur, qolları bağlı.*

"Poeziyanın nəhəngi" yetişməkdədir, özümüzü yığışdırmalıyıq"- deyən Hüseyn Cavid Müşfiqi çox sevirdi. O, eyni zamanda "Müşfiq bir oddur ki, öz-özünü yandıracaq",- deyirdi.

Mikayıl Müşfiq az yaşadı. Lakin bu az müddətdə çox iş gördü. Faydasız həyatın özü də vaxtsız ölum deməkdir. O, ölməz əsərlər yazmaqla yanaşı, dünya ədəbiyyatının incilərini də doğma dilimizə çevirməyə macal tapdı. Yuxusuz gecələrin, gərgin əməyin hesabına çox sevdiyi xalqına itməz, batmaz, qəsb olunmaz bir sərvət bəxş etdi, ondan işıqlı xatirələr qaldı.

Prezident İlham Əliyevin "Mikayıl Müşfiqin 110 illiyinin qeyd edilməsi haqqında" 2018-ci il 17 may tarixli Sərəncamı bizim mənəviyyatımızın qoruyucusunun böyük dövlətimiz olduğunun sübutudur.

Prezident İlham Əliyev Mikayıl Müşfiqin qalıqlarının tapılması ilə bağlı məsələnin araşdırılması üçün Milli Elmlər Akademiyası, Səhiyyə, Mədəniyyət nazirlikləri və digər əlaqədar qurumların nümayəndələrindən ibarət işçi qrupun yaradılması barədə göstəriş verib. Tapşırığa əsasən, M.Müşfiqə məxsus olduğu ehtimal edilən qalıqlar müvafiq qaydada DNT ekspertizasından keçiriləcək. Əgər qalıqların həqiqətən ona məxsus olduğu təsdiqini taparsa, şairin yenidən dəfn olunması ilə bağlı bütün zəruri tədbirlər görüləcək. Bax, budur, ölkə rəhbərinin görməli olduğu vəzifə! Nəinki o dövrdəki rəhbərin "qəhrəmanlıq" göstərib, öz xalqının dahisini güllə qabağına göndərərək məhv etmək.

Biz hər şeydən əvvəl ondan əmin olmalıyıq ki, ölkə rəhbərimizin siyasəti sayəsində bir xalq kimi hec vaxt yenilməyəcəyik.

**Gülbehişt ORUCOVA,**
*Əsaslı kitabxananın direktor müavini*

# AMEA-da «Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti» kitabının təqdimatı olub

**Dekabrın 7-də Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) Azərbaycan Tibb Universitetinin dosenti, tibb üzrə fəlsəfə doktoru Nağdəli Zamanovun 3 cildlik "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" kitabının təqdimatı olub.**





Tədbiri giriş sözü ilə açan AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Mövsüm Nağısoylu kitab haqqında məlumat verib.

Qeyd olunub ki, monoqrafiya 3 clddən, 55 fəsil və yarımfəsildən, 1490 səhifədən ibarətdir. Birinci clddə ümummilli lider Heydər Əliyevin nitqinin arxitektonikasına (nitqdə məntiqi ardıcıllıq, giriş və sonluqlar), nitqin ekspressivliyini yüksəldən elementlərə (nitqdə fəlsəfi fikirlər, səmimiyyət, qətiyyət, nikbinlik, proqnozlar, poetik çalarlar), eləcə də üslublara (elmi, publisistik, məişət, dini) xüsusi diqqət yetirilib.

İkinci clddə əsas və köməkçi nitq hissələrinin, sinonimlər və frazeoloji birləşmələrin üslubi imkanlarına diqqət yetirilib.

Üçüncü clddə isə ulu öndər Heydər Əliyevin nitqlərində etik və estetik mətnlər dilçilik nöqteyi-nəzərindən araşdırılıb. Müasir etikanın başlıca sahələri, hüquqi, iqtisadi, tibbi, ekoloji etikalar tədqiqat obyekti olub. Eləcə də bir sıra etik dəyərlər - ədalət, sədaqət, dostluq, cəsarət və s. ciddi araşdırılıb. Bu clddə estetik dünyagörüşün formalaşmasında xüsusi əhəmiyyət kəsb edən gözəllik, faciə, komizm elementlərinə Ulu Öndərin şifahi, spontan nitqlərində diqqət yetirilib.

Kitab təqdimatı mərasimində Dilçilik İnstitutunun tətbiqi dilçilik şöbəsinin müdiri, professor İsmayıl Məmmədli, Fəlsəfə İnstitutunun elmi işlər üzrə direktor müavini, dosent Eynulla Mədətli, ATU-nun professorları Fəxrəddin Məmmədov, Fərhad Talıbov, İbadulla Ağayev, İsfəndiyar İsmayılov, Eldar Qasımov və şair-publisistlər Yusif Hüseyn, Ələmdar Keştəkli də çıxış edərək monoqrafiya haqqında fikirlərini bölüşüblər.

Sonda 3 cildlik monoqrafiyanın müəllifi, Dilçilik İnstitutunun dissertantı Nağdəli Zamanov tədbirin təşkilkatçılarına və iştirakçılarına öz təşəkkürünü bildirib.

Tədbirdə ATU-nun bir qrup əməkdaşı və elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov da iştirak ediblər.

**"TƏBİB"**

# ŞƏRƏFLİ ÖMRÜN SƏHİFƏLƏRİ

**Dünyada elə peşələr var ki, onların dəyəri ölçüyə gəlməzdir. Onlardan birincisi insanın gözü qarşısındakı qaranlıqları öz nuru ilə ziyalandıran, elm və bilik öyrətməklə onun ağlına və düşüncəsinə də nur gətirən müəllimlikdir. Elm, bilik xəzinəsinin qapısını insanların üzünə açan, müqəddəs peşə sahibi olan müəllim haqqında Sokrat belə demişdir: "Dünyada hər şeyə dəyər vermək mümkündür, lakin müəllimin əməyinə əsla dəyər verilə bilməz".**



Həyatının 70-ci ilini yaşayan professor Fəxrəddin Nəriman oğlu Məmmədov bilik xəzinəsinə inamla daxil olan müəllim, ziyalı alim tədqiqatçılardandır.

Özünün savadı, bacarığı, işgüzarlığı, təvazökarlığı, ali insani keyfiyyətləri ilə fərqlənən ATU-nun ictimai fənlər kafedrasının professoru Fəxrəddin Nəriman oğlu Məmmədov 1948-ci il dekabrın 13-də Hacıqabul rayonunun Qızılburun kəndində ziyalı ailəsində anadan olmuşdur. O, orta təhsilini başa vurduqdan sonra 1966-cı ildə Bakı Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuş, 1971-ci ildə həmin ali məktəbi fərqlənmə diplomu ilə bitirmişdir. 1971-ci ildə əmək fəaliyyətinə Salyan rayonunda orta məktəbdə müəllimlik etməklə başlamışdır. 1973-1977-ci illərdə Azərbaycan MEA Tarix İnstitutunun aspirantı olmuşdur. 1978-ci ildə namizədlik, 1990-cı ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. 1988-ci ilə qədər Azərbaycan MEA Tarix İnstitutunda laborant, baş laborant, kiçik elmi işçi və baş elmi işçi vəzifələrində çalışmışdır.

Tələbələrlə işləmək, onlara bilik vermək həvəsi onun həyatını birdəfəlik Azərbaycan Tibb Universiteti ilə bağlamışdır. 1994-cü ildə ATU-nun professoru adını almış F.Məmmədov 2009-2013-cü illərdə ATU-nun Azərbaycan tarixi kafedrasınını müdiri vəzifəsində çalışmışdır. 2013-cü ildən isə ATU-nun ictimai fənlər kafedrasının professoru vəzifəsində çalışır. Fəxrəddin müəllim tədqiqatçı alim, səriştəli müəllim olmaqla yanaşı, həm də mədəniyyəti, ədəbiyyatı, incəsənəti dərindən bilən, duyan alim-ziyalıdır. Bu qabiliyyət isə professor F.Məmmədovun elmi istedadından, yüksək intellektual və pedaqoji bacarığından qaynaqlanır.

Görkəmli tarixçi alim, professor F.Məmmədovun elmi, ictimai-siyasi fəaliyyəti də çox məhsuldar olmuşdur. Onun rəhbərliyi altında onlarla aspirant və iddiaçı gənc alimlər sırasındadır. Tarixçi alim çoxsaylı əsərləri ilə Vətən tarixinin tədqiqinə böyük əmək sərf etmiş və layiqli töhfələr vermişdir. Ömrünün 45 ildən artıq bir hissəsini tarix elminin inkişafına sərf edən alimin bu illər ərzində 500 səhifəlik "Azərbaycan tarixi" dərsliyi də daxil olmaqla tariximizin müxtəlif problemlərinə həsr edilmiş 8 kitabı, çoxsaylı elmi və mətbu məqalələri nəşr edilmişdir. Onun "Hüseynquluxan kimdir", "Bir daha Şah İsmayıl Xətai haqqında", "Davamlı islahatların uğurlu nəticələri", "Müstəqilliyimiz əbədidir", Ulu öndər Heydər Əliyevin cahanşümul faliyyəti ilə bağlı "Dahilik zirvəsi", Azərbaycan Respublikasının birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın ictimai-siyasi və xeyriyyəçilik fəaliyyəti ilə bağlı "Vətətn sevgisi, xalq məhəbbəti", "Xeyirxah əməllər müəllifi" kimi iri həcmli məqalələri mətbuatda çap olunmuşdur. F.Məmmədovun ABŞ və Yəmən mətbu orqanlarında siyasi mövzuda "Qarabağ probleminin sülh yolu ilə həll olunmasında prezident Heydər Əliyevin rolu" və "Yolumuz demokratiya yoludur" adlı maraqlı məqalələri də nəşr edilmişdir.

Professor F.Məmmədov iki cildlik "Azərbaycan Xalq Cümhuriyyəti" ensiklopediyasının müəlliflərindən biridir. O, Azərbaycan Tarix Qurumunun Rəyasət Heyətinin, Bakı Dövlət Universitetinin tarix fakültəsinin İxtisaslaşmış Müdafiə Şurasının üzvüdür. "Azərbaycan tarixi"ni təkcə tələbələrə tədris etməklə kifayətlənməyən professor F.Məmmədov uzun müddət "Əsrlərdən gələn səslər" (AzTV) verilişinin aparıcısı olmuşdur.

Respublikada gedən ictimai-siyasi proseslərdən də kənarda qalmayan, öz zəhmətsevərliyi ilə seçilən Fəxrəddin müəllim tələbələr, universitet kollektivi, respublika tarix ictimaiyyəti içərisində bir tarixçi-alim, mütəxəssis kimi böyük nüfuz sahibidir.

Fəxrəddin müəllim Azərbaycan Tibb Universitetində tələbələrə Azərbaycan tarixi fənnini tədris etməkdən və eyni zamanda belə bir kollektivlə işləməkdən şəraf duyur. Tariximizin müxtəlif problemlərinə dair, yaddaşlara həkk olunan hadisələrlə bağlı universitetdə keçirilən tədbirlərin fəal iştirakçısı olan professor Fəxrəddin Məmmədov çoxsaylı məruzələrlə də çıxışlar etmişdir.

Ömür adlı dəyirman daşının 70-ci dövrəsini yenicə başa vuran professor F.Məmmədov elm yollarının aşırımlarını keçərək müdriklik zirvəsinə doğru irəliləyir. Yolunuz uğurlu olsun, Fəxrəddin müəllim! 70 illik yubileyiniz münasibəti ilə təbrik edir, sizə möhkəm cansağlığı, yeni-yeni elmi yaradıcılıq və pedaqoji fəaliyyət uğurları arzulayırıq!

**İctimai fənlər kafedrasının əməkdaşları**

# Kardioloq rezidentimiz Konqresdə birinci yerə layiq görülüb

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının kardiologiya şöbəsinin rezidenti Sevinc Əliyeva Azərbaycan Kardiologiya Cəmiyyətinin təşkil etdiyi yarışda iştirak edib. O, VII Milli Konqresi çərçivəsində Dr. Əli Əkbərovun xatirəsinə həsr olunmuş gənc kardioloqlar arasında klinik hal yarışmasında "Noncompaction kardiomiopatiyalı xəstədə atrial taxikardiya səbəbli taxikardiomiopatiya" adlı klinik hal təqdimatı ilə çıxış edib.**



Qeyd edək ki, ilkin olaraq təqdim edilən 14 klinik haldan 10-u ATU-nun Tədris Terapevtik Klinikasının kardiologiya şöbəsinin rezidentlərinə aiddir. Klinik halların dəyərləndirmə komitəsi tərəfindən keçirilən Azərbaycan Kardiologiya Cəmiyyətinin VII Milli Konqresində çıxış üçün 5 klinik hal seçilib ki, onlardan da 4-ü ATU-nun Tədris Terapevtik Klinikasının rezidentləri tərəfindən təqdim edilmiş klinik hallar olub.

Sonda ATU-nun nümayəndəsi klinik halları dəyərləndirən münsiflər heyətinin qərarı ilə Əli Əkbərovun xatirəsinə həsr olunmuş gənc kardioloqlar arasında klinik hal yarışmasının qalibi seçilib.

# 4 yaşlı uşaqda nadir genetik xəstəlik təsdiqlənib

**Azərbaycan Tibb Universitetinin mütəxəssisləri 4 yaşlı körpədə nadir genetik xəstəliyin olduğunu təsdiqləyiblər. Bu vaxtadək raxit diaqnozu ilə müalicə alan Gülşən Rəsulova adlı balaca pasiyent əslində tamamilə fərqli xəstəlik – mukopolisaxaridozdan əziyyət çəkirmiş.**



Uşağın həkimi, ATU-nun II uşaq xəstəlikləri kafedrasının assistenti Adilə Çernik-Bülənd bildirir ki, raxit diaqnozu qoyulduğu üçün xəstəyə çox miqdarda vitamin D verilib.

Nəticədə vitamin D artıqlığı - hipervitaminoz yaranıb. Bu, özü də ayrıca bir xəstəlikdir. Lakin körpə Kürdəmirdə yerli nevropatoloq tərəfindən müayinə olunarkən, raxit diaqnozunun düzgünlüyü ilə bağlı şübhə yaranıb. Odur ki, balacanı ATU-ya yönləndiriblər.

Adilə xanımın sözlərinə görə, xəstənin müayinəsi zamanı mukopolisaxaridoz olduğundan şübhələnib: "Mukopolisaxaridozun özünə məxsus əlamətləri var. Belə xəstələrin kürəyində tüklər çıxır, qaşları, kiprikləri qalın, saçları uzun, burun yəhəri batıq olur, əlləri bir qədər içəriyə tərəf əyilir. Mən də uşağın əlində bu əlaməti görəndən sonra həmin xəstəlikdən şübhələndim".

Həkim bildirir ki, bu xəstəliyin dəqiq diaqnozu qoymaq üçün ehtiyac olan analiz çox bahalıdır. Tək bir analizin qiyməti 1800 avro təşkil edir. Lakin G.Rəsulovanın analizini qazaxıstanlı həmkarların köməyilə Almaniyada pulsuz həyata keçirmək mümkün olub. Təəssüf ki, analiz azərbaycanlı həkimlərin şübhələrini təsdiqləyib – 4 yaşlı pasiyentdə mukopolisaxaridoz xəstəliyi olduğu təsdiqlənib.

Adilə Çernik-Bülənd qeyd edir ki, belə xəstələrin orqanizmində enzim fermenti olmur. Orqanizmdə turş mukopolisaxaridlərin mübadiləsi pozulur, parçalanmamış, tam yanmamış maddələr lizosomonlarda toplanır. Nəticədə turş mukopolisaxaridlərin utilizasiyası pozulur. Sümüklər əyilir, kürəkdə qozbellik yaranır. Bu irsi xəstəliyin 7 növü var: Qurler, Hunter, Sanfilippo, Morkio, Maroto-lami, Şeye və Slay sindromu. Məsələn, məşhur "Notrdam kilsəsinin qozbeli" əsərindəki Kvazimo da məhz bu xəstəliyin birinci tipi olan quller xəstəsi olub. Belə xəstələr yalnız son mərhələdə həmin formaya düşürlər.

Hər bir növdə konkret bir ferment çatışmazlığı müşahidə olunur. Ona görə də xəstəliyin hər bir tipinə uyğun çatışmayan ferment xəstəyə vurulur. Lakin bu müalicə ömürlük davam etməlidir.

Adilə Çernik-Bülənd qeyd edir ki, 4 yaşlı balaca Gülşənə də müalicə lazımdır. Həlelik simptomatik müalicə yazılır. Lakin bu nadir rast gəlinən xəstəliyin müalicəsi də baha olduğundan, xəstənin ailəsinə Səhiyyə Nazirliyi tərəfindən yardım olunacaq.

Həkim məsləhət görür ki, uşaqlarında belə irsi xəstəlik olan valideynlər növbəti dəfə uşaq gözləyəndə, mütləq genetik analizdən keçsinlər və yalnız risk olmadığı halda ikinci uşağı dünyaya gətirsinlər.

# Çeynəmə qabiliyyətini itirən xəstə uğurla əməliyyat olunub

**Əhali arasında tez-tez rast gəlinən problemlərdən biri də üz-çənə anomaliyalarıdır. Bu yaxınlarda Azərbaycan Tibb Universitetində belə problemi olan xəstəyə yüksək ixtisaslı yardım göstərilib.**



Ağız üz-çənə cərrahiyyəsi kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru İsmayıl Fərzəliyev qeyd edir ki, xəstənin alt və üst dişləri üst-üstə düz gəlmədiyinə görə xəstədə çeynəmə prosesi pozulubmuş. Eyni zamanda xəstənin sifət quruluşunda da əyrilik qeyd edilirdi.

"Pasiyent qida qəbulunda çətinlik çəkirdi. Həmçinin, xəstənin üzündə estetik baxımdan da pozğunluqlar vardı - çənə öndə idi. Müvafiq müayinələrdən sonra tərəfimizdən kompyuter modelləşmə ilə xəstəyə əməliyyat planı hazırlandı".

İ.Fərzəliyevin sözlərinə görə, üz skeleti sümüklərində 2 saat davam edən əməliyyat nəticəsində xəstədə üzün quruluşu, dişlər və çeynəmə qabiliyyəti tam bərpa olunub.

# ATU-nun nümayəndəsi beynəlxalq konfransda məruzəçi kimi çıxış edib

**Türkiyənin İzmir şəhərində 9 Eylül Universitetinin təşkil etdiyi "I Beynəlxalq, III Milli Doğuşa Hazırlıq Təlimi və Təlimçilik" mövzusunda konfrans keçirilib.**



Konfransda Türkiyənin müxtəlif şəhərlərindən, Makedoniya, Almaniya, İngiltərə, o cümlədən Azərbaycandan dəvət olunmuş məruzəçilər çıxış ediblər.

Tədbirdə Azərbaycanı məruzəçi qismində Azərbaycan Tibb Universitetinin II mamalıq-ginekologiya kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru Ellada Sarıyeva təmsil edib.

E.Sarıyeva məruzəsində XX əsrdə Azərbaycanda doğuşa hazırlığın tarixi, müasir dövrdə doğuşa hazırlıq, doğuşun ağrısızlaşdırılması istiqamətində respublikamızda aparılan dövlət əhəmiyyətli tibbi proqramlardan, müalicə-profilaktika tədbirlərindən danışıb.

Qeyd edək ki, konfransın ilk günündə müxtəlif mövzularda kurslar təşkil olunub. E.Sarıyeva "Reboza-massaj" kursunu keçərək sertifikat alıb. O, həmçinin maraqlı çıxışına görə ikinci sertifikrat - "Təşəkkür Sertifikatı" ilə də təltif edilib.

**ATU-nun mətbuat xidməti**

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

**Elmi Tədqiqat Mərkəzi:**

- Eksperimental Endokrinologiya şöbəsinin müdiri - 1 yer

**Kafedraların professorları:**

- Dermatovenerologiya kafedrası - 1 yer
- Kommunal və qidalanma gigiyenası kafedrası - 1 yer
- Əczaçılıq kimyası kafedrası - 1 yer

**Kafedraların dosentləri:**

- Patoloji fiziologiya kafedrası - 2 yer
- Tibbi biologiya və genetika kafedrası - 1 yer (0,5 vahid)
- Bioloji kimya kafedrası - 1 yer
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer (0,5 vahid)
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer

**Kafedraların baş müəllimləri:**

- Tibbi biologiya və genetika kafedrası - 1 yer
- İnsan anatomiyası kafedrası - 1 yer
- Bioloji kimya kafedrası - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14
Telefon: 597-43-23

## Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**2018-2019-cu tədris ilindən başlayaraq, kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Tərcümeyi-halın çap forması və elektron variantı. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinika və laboratoriyalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı və sürətləri. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müəllimin bal-reytinq cədvəli.
10. Müvafiq elmi dərəcə diplomu və elmi ad attestatının surəti.

**Qeyd:** ***ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci, 7-ci və 9-cu bənddəki sənədlərin əvəzinə sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.***

# Tələbələrimiz Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunda istehsalat təcrübəsi keçiblər

**İctimai səhiyyə fakültəsinin V kurs tələbələri Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunda istehsalat təcrübəsi keçiblər.**




ATU-nun rektoru, professor Gəray Gəraybəylinin və Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzlinin birgə təşəbbüsü ilə iki həftə ərzində tələbələr biliklərini praktikada tətbiq edəcəklər.

Tələbələr istehsalat təcrübəsində proqrama uyğun olaraq, "AGTA-nın quruluşu və ayrı-ayrı struktur bölmələri ilə tanışlıq" və "Qida təhlükəsizliyi üzrə qanunvericilik, sanitar-gigiyenik, baytar və fitosanitar normalar" adlı mövzular ilə tanış olublar.

Dərslərin müzakirə formasında keçilməsi və burada onlara hər bir şərait yaradılması tələbələrdə istehsalat təcrübəsinə marağı daha da artırıb.

# ATU-nun TGT-ni təmsil edən "Dominators" komandası I yerə layiq görülüb

**Azərbaycanda ilk dəfə ali təhsil müəssisələri arasında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "Xəmsə" Milli İntellektual Oyunu üzrə Azərbaycan çempionatı keçirilib. Yarış Gənclər və İdman Nazirliyinin dəstəyi, Azərbaycan Dillər Universitetinin, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı və Gənclərin İntellektual İnkişaf Mərkəzi İctimai Birliyinin birgə təşkilatçılığı ilə baş tutub.**



32 təhsil müəssisəsinin iştirak etdiyi çempionatda Azərbaycan Tibb Universitetinin Tələbə Gənclər Təşkilatının komandası "Dominators" I yerə layiq görülüb.

Komanda heyətinin tərkibini Fərid Qurbanlı, Zahid Əliyev, Radim Əzimov, Nurlan Abasquliyev və Mircavad Mirbabayev təşkil edib.

# Türk Şurası Gənc Liderlərinin I Forumu

**Naxçıvan Muxtar Respublikasında Türk Şurası Gənc Liderlərinin I Forumu baş tutub. Forum, Azərbaycan, Türkiyə, Qırğızıstan, Qazaxıstan nümayəndə heyətinin iştirakı ilə keçirilib.**



Açılışda Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov Azərbaycan Respublikasının Gənclər və İdman Naziri Azad Rəhimov, Türk Şurası Baş katibinin müavini Ömər Kocaman, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva,Türk Parlament Assambleyasının baş katibinin müavini Əli Yıldız iştirak ediblər.

Qeyd edək ki, bu forum türkdilli dövlətlər arasında münasibətlərin daha da möhkəmlənməsinə təkan verəcəkdir.

Forumda ATU-nu Tələbə Gənclər Təşkilatının sədri Rauf Vəliyev təmsil edib.

# Tələbələr arasında dama yarışı olub

**Azərbaycan Tibb Universitetində tələbələr arasında dama oyunu üzrə yarış təşkil olunub. Yarışma ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü ilə baş tutub.**



Yarışmada iştirak üçün 48 tələbə qeydiyyatdan keçsə də, onların 30-u oyunlara qatılıb. Dama üzrə yarışma 3 saata yaxın davam edib.

Nəticədə birinci yeri ATU-nun stomatologiya fakültəsinin III kurs tələbəsi Rahib Qarayev, ikinci yeri II müalicə-profilaktika fakültəsinin I kurs tələbəsi Səbinə Şabalova, üçüncü yeri isə I müalicə profilaktika fakültəsinin II kurs tələbəsi Toğrul Abdullayev qazanıb. Qaliblər ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsi tərəfindən hədiyyələrlə təltif olunublar.

## Allah rəhmət eləsin!

Histologiya, embriologiya və sitologiya kafedrasının kollektivi kafedranın assistenti Səbinə İsrafilovaya anası

**Natella xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Histologiya, embriologiya və sitologiya kafedrasının kollektivi kafedranın baş müəllimi İradə Əliyevaya anası

**Almaz xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın assistenti

**Mehdi Mehdiyevin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Şüa diaqnostikası və terapiyası kafedrasının əməkdaşları kafedranın assistenti

**Gülnarə Əhmədovanın**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

İctimai səhiyyə fakültəsinin və "Təbib" qəzetinin kollektivi, ictimai sağlamlıq və səhiyyənin təşkili, kommunal və qidalanma gigiyenası kafedralarının əməkdaşları ictimai səhiyyə fakültəsinin dekanı, professor Anar Ağayevə

**bibisinin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın əməkdaşı Aqil İsmayılova atası

**Novruz İsmayılovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın muzey müdiri Nərgiz Axundovaya qardaşı

**Fazil Axundovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## *Etibarsız sayılır*

I müalicə-profilaktika fakültəsinin I kurs, $118^{a-12-a}$ qrup tələbəsi Abbaslı Ülvi İlqar oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, $218^{a-10-c}$ qrup tələbəsi Həsən Şamilin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin III kurs, $788^{c}$ qrup tələbəsi Hussam Abbass Al-magsosinin adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin IV kurs, $703^{a}$ qrup tələbəsi Yusifli Gülmaya Dunay qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin IV kurs, $212^{a}$ qrup tələbəsi Məhərrəm Hüseynovun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $117^{a-2}$ qrup tələbəsi Quluzadə Məhəmməd Məhəmmədəli oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, $317^{a-1}$ qrup tələbəsi Məmmədov Kənan Azad oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# Tələbələrimiz IV Bakı Beynəlxalq Tibbi Treninq günlərində iştirak ediblər

**Bakıda IV Beynəlxalq Tibbi Treninq günləri keçirilib. Tədbirdə Azərbaycan Tibb Universitetinin tələbələri Sevda Ağayeva, Cavid Mustafazadə, Nübar Cavadzadə, Zərifə Cavadzadə, Əlisahib Mürşüdlü, Vüqar Əliyev, Təravət Sədrayeva, Zəminə Abdullayeva və Kamilə Qaraisalı iştirak ediblər.**

Toplantıda Azərbaycanla yanaşı Türkiyə, Rusiya, Ukrayna, Almaniya və Özbəkistandan gəlmiş 300 iştirakçı olub.

Tədbirin ilk günündə dünyanın müxtəlif universitetlərinin klinikalarından gəlmiş professorlar referent və təlimçi qismində iştirak ediblər. Tədbirin ikinci günü Azərbaycan, Türkiyə, Ukrayna, Özbəkistan və Dağıstandan gəlmiş 150-ə yaxın iştirakçı üçün laparoskopik və ümumi cərrahiyyə, endoskopiya, ultrasonoqrafiya, radiologiya, ginekologiya, kardiopulmonar reanimasiya üzrə kurslar keçirilib.

Təlimlərdə Avropada həkimlərin davamlı tibb təhsili və ixtisasartırması məqsədilə tətbiq olunan ən müasir proqramlardan və xüsusi modellərdən istifadə edilib. Tədbir əsnasında tibb bacıları üçün də iki səviyyədə praktik vərdiş seminarları təşkil olunub.




Xatırladaq ki, tədbir Səhiyyə Nazirliyi tərəfindən də akkreditasiya olunaraq 18 Davamlı Tibbi Təhsil balı ilə qiymətləndirilib. Tədbirin sonunda iştirakçılara beynəlxalq sertifikatlar təqdim olunub.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - $98^{c}$
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800